# "Qara qızıl" "yaşıl cənnət"ə transformasiya olunur

***30** il əvvəl Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının tammiqyaslı işlənməsi və hasilatın pay bölgüsü sazişi imzalanmış və sonralar "Əsrin müqaviləsi" adını almışdı. O zaman ulu öndər Heydər Əliyev böyük uzaqgörənliklə "Əsrin müqaviləsi"nin qarşıdakı inkişaf yolunda nəhəng işlərin başlanğıcı olduğunu demişdi. 1994-cü il sentyabrın 20-də imzalanan müqavilə Azərbaycanın yeni neft strategiyası və doktrinasının başlanğıcıdır. Zaman göstərdi ki, bu, həm də gələcək əsrlərə hesablanmış sazişdir.*






2017-ci ildə "Azəri-Çıraq-Günəşli"nin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş Sazişin imzalanması deyilənlərin əyani təsdiqidir. Prezident İlham Əliyev 2017-ci il sentyabrın 14-də yeni müqavilənin imzalanması mərasimində bunu bir daha vurğulamışdır: "23 il ərzində kontraktın icrası da çox uğurlu idi. Bu illər ərzində "Azəri-Çıraq-Günəşli"dən 436 milyon ton neft hasil edilmişdir. Yaxşı xatırlayıram ki, 1994-cü ildə kontrakt imzalananda təxmin edilən neft ehtiyatları 511 milyon ton müəyyən olunmuşdu. Ancaq bugünkü məlumat, - əminəm ki, bu, son məlumat deyil, ehtiyatlar daha da artacaq, - onu göstərir ki, hələ də "Azəri-Çıraq-Günəşli"də hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatı vardır. Yenə də qeyd etmək istəyirəm ki, bu, ilkin hesablamalardır. Əminəm ki, kontraktın icrası müddətində bu rəqəm daha da artacaq". "Yeni əsrin müqaviləsi"ni Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan hökumətinin, SOCAR-ın, BP, "Chevron", "Inpex", "Statoil", "ExxonMobil", "TP", "Itochu" və "ONGC Videsh" şirkətlərinin rəsmiləri Bakıda imzalayıblar. Həmin il oktyabrın 31-də Azərbaycan Respublikasının Milli Məclisi sazişi ratifikasiya edib. Bununla da, "Azəri-Çıraq-Günəsli" yataqlar blokunun işlənilməsində yeni dövr başlanıb.

Xəzərin ölkəmizə məxsus sektorunda sahildən təxminən 120 km şərqdə yerləşən "Azəri-Çıraq-Günəşli" yataqları dünyanın ən zəngin neft mənbələrindəndir. "Çıraq"dan artıq 30 ilə yaxındır neft hasil olunur. 2005-ci ildən "Azəri" yatağından da neft çıxarılıb. "Günəşli"nin dayaz hissəsi sovet dönəmindən Azərbaycan neftçiləri tərəfindən istismar olunub, dərinsulu hissəsinin işlənməsi isə "Əsrin müqaviləsi"nin tərkibinə daxildir. İndiyədək "Azəri-Çıraq-Günəşli"dən 593 milyon ton neft, 222,9 milyard kubmetr qaz hasil olunub. "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsindən 3 milyard 5,3 milyon ABŞ dolları məbləğində gəlir əldə edilib. Bu günədək AÇG-yə 44.5 milyard dollardan çox investisiya yatırılıb.

"Əsrin müqaviləsi"nin imzalanmasından keçən 30 il tarix üçün böyük zaman kəsiyi deyil. Bu qısa dövr ərzində Azərbaycan bir sıra qlobal layihələr həyata keçirib, böyük uğurlara imza atılıb. Bakıdan 55 km cənubda, dünyanın ən böyük neft qaz terminallarından biri, Səngəçal terminalı tikilib. Bakıdan Supsaya uzanan Qərb İxrac Boru Kəməri, üç ölkənin ərazisindən keçən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri çəkilmişdir. Bakı-Supsa 99,4 milyon ton, Bakı-Tbilisi-Ceyhan (BTC) isə 477,5 milyon tonu Azərbaycana, 55,4 milyon tonu digər ölkələrə, ümumilikdə 533 milyon tondan çox nefti dünya bazarına nəql edib. "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunda istismara verildiyi vaxtdan etibarən 570 milyon ton neft və 205 milyard kubmetr təbii qaz hasil olunub. Hasil olunan neftin 60 faizi və ya 345 milyon tonu xarici bazarlarda çıxarılıb ki, bu da ölkənin iqtisadi inkişafına əhəmiyyətli dərəcədə təsir edib.

Azərbaycan getdikcə yeni-yeni ölkələri təbii qazla təmin edəcək. Ölkə başçımız cənab İlham Əliyevin də qeyd etdiyi kimi, enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz parçasıdır. Azərbaycandan İtaliyayadək uzanan, Cənub Qaz Dəhlizi adlanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi bu gün 10 ölkənin enerji təhlükəsizliyini təmin edir. Hazırda 10 ölkə Azərbaycandan qaz alır və onlardan 7-si Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı və etibarlı tərəfdaş adlandırır. 1994-cü ildən başlayaraq "Əsrin müqaviləsi" ilə dünya energetika bazarında mövqeyini möhkəmləndirən Azərbaycan bu gün "yaşıl enerji" və "yaşıl iqtisadiyyat" siyasətinə keçidi uğurla həyata keçirir: Postmüharibə dövründə ölkəmiz bu istiqamətdə bir sıra nəhəng layihələrə imza ataraq, beynəlxalq enerji təhlükəsizliyində aktordur. Eyni zamanda Azərbaycanın COP29-a ev sahibliyi etməsi, ölkənin enerji siyasətinin beynəlxalq aləmdəki əhəmiyyətini nümayiş etdirir. Bu tədbir ulu öndər Heydər Əliyevin enerji siyasətinin davam etdirildiyini və cənab İlham Əliyevin təşəbbüskarı olduğu layihələrin beynəlxalq səviyyədə qəbul edilməsini bir daha təsdiqləyir. Beləliklə, Azərbaycan enerji resurslarının diversifikasiyası və "yaşıl enerji" siyasətinin inkişafı ilə dünya enerji bazarında etibarlı tərəfdaş olmağa davam edir.

**Tacir SADIQOV,**
**"Respublika".**